Tarix təkrar olunur,

yaxut Azərbaycan əskərinin qan bahasına qovduğu kiçik işğalçı getdi, nədən onun yerinə gələn böyük işğalçıya qucaq açılır

Azərbaycanlıların meydanlara axışıb qələbə sevincilə şənlənməsi tarix kitablarından oxudqlarımı yadıma saldı.

Azərbaycan əsgərləri 28 yıl işğal altında qalmış Qarabağda qəhrəmancasına savaşdı. 8 Kasımda Şuşanı da işğaldan azad etdi. 9 Kasımda isə Dağlik Qarabağın başkəndi olan Xankəndinə-Stepanakertə girdi. Ermənilər də Qarabağdan Ermənistana doğru qaşmağa başladılar.

Durmadan Azərbaycanın iş probleminə qarışmırıq deyən Rusiya yetkililəri birdən sükutu pozdular. Heç bir bəyanat vermədən, danışıq aparmadan, müqavilə bağlamadan Azərbaycan ordusunun qan bahasına Ermənilərədn təmizlədiyi Qarabağa gəlməyə başladı. Kasımın 9da

Ermənistanın Batısı, Gümrüdəki Rusyanın üstündən hərəkət edən Rusiyanın əsgəri birlikləri axşam Azərbaycanın işğalda kurtarılmakda olan Laçın kasabasına daxil oldular.

Putin heç bir rəsmi danışıqlara başlamadan, müqavilə bağlamadan İlham Əliyevi və Paşinyanı savaşın durdurulduğu haqqında bəyanat verməyə məcbur etdi. Beləcə 1992-ci ildə Əbülfəz Elçibəyin rəhbərlik etdiyi Xalq Cəbhəsi hökumətinin Azərbaycandan çıxardığı Rus qoşunları bu dəfə 28 il sonra bir Azərbaycan ərazisi olan Qarabağa daxil oldu. Onlar Qarabağa daxil olarkən Azərbaycan ordusunun əsgəri birlikləri ilə toqquşub toqquşmadığı haqqında əlimizdə hələlik net bir bilgi yoxdur.

Bolşeviklər Samur körpüsündən Azərbaycana daxil olanda baş vermiş toqquşmada 600 kiyi döyüşdə şəhid olmuşdu. Halkdan bunu 70 il gizli saxladılar.

1920-ci ilin martında erməni orduları Qarabğı işğal edərək kəndləri dağıtdı, dinc adamlı qılıncdan keçirdi. Azərbaycan hökuməti bütün gücünü toplayaraq ordusunu Qarabağa göndərdi. Əsgəri birliklərimiz şücaətlə döyüşərək Erməni ordusunu Əsgəran yaxınlığında ağır məğlubiyyətə uğratdı. Bu savaş 15 gün çəkdi. Savaş yeni bitən günlərdə, Azərbaycan ordusu geri-qışlalarına dönüb itkilərinin yerini doldurmadan Rusiyanın 11. Qırmızı ordusu Dağıstandan Azərbaycana doğru irəlilədi. Ruslar ordunun komandanı Halil Paşa olduğunu və bu ordunun Azərbaycandan keçərək Anadoluda azadlığı uğrunda savaşan Türklərə yardıma getdikləri söylədilər. Halil Paşa da buna inandı və Qafqaz müsəlmanlarını Anadoluya yardıma gedən orduya köməyə çağırdı. Azərbaycanda da bu çağrış bayram sevincilə qarşılandı.

Rus ordusunun durdurmağa çalışan 556 kişilik Azərbaycan sınır mühafizləri 1920-ci il aprelin 27-dən Samur çayı üzərindəki döyüşlrdə şəhid oldular. Bakıda isə işğalçı Rus əsgərlərini

sevinclə qarşıladılar. Çünki bu ordunun Türklərə yardıma gedəcəyini düşünürdülər. Lakin Rus-Bolşevik ordusu Anadoluya-Türklərə yardıma getmədi, Azərbaycanda qaldı. Bir ildə 48 min müsəlmanı öldürdü. İlk öldürdükləri isə onlara yardımşı olan Osmanlı ordusuun əsgər və zabitləri idi. Özlərini sosialist, kommunis adlandıran Osmanlı ordusunun əsgər və zabitləri Azərbaycanda müsəlmanlara Ruslardan heç də az divan tutmamışdılar. Necə deyərlər Allah Tala hak divanı qurdu. Müsəlman qardaşlarına divan tütan Osmanlı sosialist və kommunustlərini bolşeviklərin əlilə cəzalandırdı.

İndi siz deyin Rus ordularının yenidən Azərbaycana gəlməsini, Qarabağda yeləşməsini kutlamağa dəyərmi?!

Əli Şamil Hüseyinoğlu

10.11.2020